Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Poeziyamızın parlaq sənətkarı
# Bəxtiyar Vahabzadə

Xalq şairi Bəxtiyar Vahabzadənin 95 illiyi münasibətilə Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

Bakı-2020

**Tərtibçi:** **Ruhiyyə Məmmədli**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

“Poeziyamızın parlaq sənətkarı” Bəxtiyar Vahabzadə nin 95 illik yubileyi münasibətilə kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. -Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2020.- 21s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Xalq şairi Bəxtiyar Vahabzadə özünün çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafına mühüm töhfələr verən, bu istiqamətdə müstəsna xidmətləri olan aparıcı sənətkarlardan biridir. Onu haqlı olaraq çağdaş milli şeirimizin canlı klassiki adlandırırlar. Əlbəttə şairin poetik istedadına verilən belə dəyər təsadüfi deyil, əksinə bunun obyektiv səbəbləri var. Azərbaycan şeirinin son yarım əsirlik tarixi təkamül prosesini Bəxtiyar Vahabzadə yaradıcılığı olmadan təsəvvür etmək mümkün deyil. Azərbaycan ədəbiyyatında, ictimai fikir tariximizdə müstəsna rol oynayan B.Vahabzadə özündən sonra böyük bir irs qoyub. Həm şair, həm alim, həm də ictimai xadim kimi Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin inkişafına bənzərsiz töhfə verib. Ədəbiyyat, ictimai fikir tariximizdə böyük azərbaycançılardan biri kimi qalan B.Vahabzadə azərbaycançılığın ən qüdrətli nümayəndələrindən biri olaraq xatırlanacaq. Onun yaratdığı külliyyat azərbaycançılıq məfkurəsinə ən dəyərli töhfədir. Bu vəsaiti sevimli xalq şairimiz Bəxtiyar Vahabzadənin 95 illiyi münasibətilə sizə təqdim etməkdə əsas məqsədimiz oxucuların şair haqqında olan məlumatlarını daha da artırmaqdır. Vəsaitin "Azərbaycan bədii təfəkkürünün fenomeni" adlanan birinci hissəsində Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığından, ikinci hissəsində isə şairə həsr olunmuş kitabxana tədbirlərdən söhbət açılır. Bildiyimiz kimi Bəxtiyar Vahabzadə nəinki Azərbaycanın, eyni zamanda bütün türk dünyasının əsərlərini sevərək oxuduğu, şəxsiyyətinə hörmətlə yanaşdığı bir sənətkardır. Çox təəssüf ki, Azərbaycan, 2009-cu ilin fevralında öz böyük söz ustadı ilə vidalaşmalı oldu. Dünyadan köçməsinə baxmayaraq, o ölməz sənətkar hər bir azəri vətəndaşının, eyni zamanda Bəxtiyar sevərlərin ürəyində yaşayır və yaşayacaq.

## Azərbaycan bədii təfəkkürünün fenomeni

Hər insan sirli-sehirli bir aləm, yazılmamış bir kitabdır. Yaradıcı insanın könül dünyası daha cazibədar, coşğun, üfüqləri isə daha geniş, zəngin və əlçatmaz olur. Bəxtiyar Vahabzadə də həmin yaradıcı insanlardandır.

Bəxtiyar Vahabzadə 1925-ci ildə Şəki şəhərində fəhlə ailəsində anadan olmuşdur. Kiçik yaşlarında ikən ailəsilə birlikdə Bakıya köçən Bəxtiyar burada orta məktəbi bitirdikdən sonra ADU-nun filologiya fakültəsində təhsil almışdır (1942-1947). O, universitetin aspiranturasında saxlanmış, "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir (1951). Bəxtiyar Vahabzadə bədii yaradıcılığa 1943-cü ildə "Ana və şəkil" adlı ilk şerini çap etdirdikdən sonra başlamışdır. Onun "Mənim dostlarım" adlı ilk kitabında toplanmış lirik şeirlərdə faşizmə qarşı mübarizədə qalib çıxmış xalqın duyğu və düşüncələri öz əksini tapmışdır. Onun lirik şeir və poemalarında, mənzum pyeslərində müasir dövrün problemləri lirik-fəlsəfi planda, yeni əlvan boyalarla təsvir edilib. Şairin "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Fəryad", "Hara gedir bu dünya", "Özümüzü kəsən qılınc", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" (1960-2003) pyesləri Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. O "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir (1964). Daha sonralar o, Azərbaycan Dövlət Universitetində Müasir Azərbaycan ədəbiyyatı kafedrasının professoru vəzifəsində çalışmışdır (1950-1990). Bəxtiyar Vahabzadə 1980-ci ildə Azərbaycan MEA-nın müxbir üzvü, 2000-ci ildə isə həqiqi üzvü seçilmişdir. 1981-ci ildə SSRİ Yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir. Şair 1976-cı ildə "Muğam"

poemasına görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" və "İstiqlal" (1995) ordenləri ilə təltif olunmuşdur. Bəxtiyar Vahabzadə 60-cı illərdən başlayan milli azadlıq hərəkatının öncüllərindən biri idi. O, 1959-cu ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirmiş, rus və fars imperiyasının pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulmuşdur. Bu poemaya görə 1962-ci ildə şair "millətçi" damğası ilə Azərbaycan Dövlət Universitetindən çıxarılmış, yalnız 2 ildən sonra öz vəzifəsinə bərpa edilmişdir. Bəxtiyar Vahabzadə sovet rejimində milli varlığı tapdanan, hər cür məhrumiyyətlərə məruz qalan millətin dərdlərini rəmzlər və müxtəlif ədəbi üsullarla ifadə etmiş, iri həcmli poemaları və pyeslərində hadisələri ya tarixə, ya da başqa ölkələrə keçirərək öz millətinin dərdlərini dilə gətirmişdir. Birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini isə şair, sovet ittifaqı dağılandan sonra "Sandıqdan səslər" başlığı altında nəşr etdirmişdir. Bəxtiyar Vahabzadə 70-dən artıq şeir kitabının, 2 monoqrafiyanın, 11 elmi publisistik kitabın və yüzlərlə məqalənin, eləcə də tarixi və müasir mövzuda 20-dən artıq iri həcmli poemanın müəllifidir. Şairin əsərləri - şeir kitabları, dramları və publisistik yazıları dünyanın bir çox dillərinə, o cümlədən ingilis, fransız, alman, fars, türk, polyak, ispan, macar, keçmiş Sovetlər Birliyi xalqlarının dillərinə tərcümə edilmişdir. Xalq şairi 2009-cu il fevral ayının 13-də, 84 yaşında uzun sürən xəstəlikdən sonra Bakıda vəfat etmişdir. Bəxtiyar Vahabzadə həyatla vidalaşmış olsa da, hər bir Azərbaycan vətəndaşı sevimli şairini öz ürəyində yaşadacaq.

## Yubiley tədbirlərinin keçirilməsi

Bəxtiyar Vahabzadə Azərbaycan xalqının sevimli şairlərindən biridir. Bədii ədəbiyyatımızı onun yaradıcılığı olmadan təsəvvür etmək qeyri-mümkündür. Şair ömrünün sonuna qədər böyük sənət ehtirası ilə yazıb yaratmışdı. Müdrik həyat düşüncələrini, daşlardan süzülüb gələn dağ şəlaləsi kimi içindəki hissləri, duyğuları sətirlərə çevirən, söz, sənət dünyasını yeni incilərlə rövnəqləndirən sənətkar artıq neçə illərdir ruhların qovuşduğu bir məkanda yatır. Azərbaycan ədəbiyyatının görkəmli şairi, böyük azərbaycançı B.Vahabzadə yaradıcılığında vətən, ana, bütöv Azərbaycan mövzusu oxucuların diqqətini özünə cəledir. Bəxtiyar Vahabzadə yaradıcılığında vətən və onun taleyi mövzusu bir mərhələ və ya dövr deyildi: o bütün yaradıcılığı boyu özünü bütöv və böyük Azərbaycanın milli şairi kimi dərk etmiş və bu missiyanın daşıyıcısı olması ilə qürur duymuşdu. Xalqımız da bu ölməz sənətkarı ilə qürur duyur. Bəxtiyar Vahabzadə şəxsiyyətini gələcək nəsillərə tanıtmaq insanların qəlbindəki Bəxtiyar sevgisini daha da artırmaq hər bir vətəndaşın üzərinə düşən əsas öhdəliklərdən biridir. Bu sahədə kitabxanalarımızın rolu əvəzsizdir. Belə ki, bu il Bəxtiyar Vahabzadənin 95 illiyi münasibətilə dövlət səviyyəsində bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bu tədbirlər arasında kitab sərgiləri mühüm yer tutur. Sərgilərə bir birindən maraqlı başlıqlar vermək olar: "Azərbaycan bədii təfəkkürünün fenomeni", "Türk dünyasının böyük söz ustadı", "Ədəbiyyatımızın poetik fikrinin ustadı", "Çağdaş milli şeirimizin canlı klassiki", "Poeziyamızın parlaq sənətkarı" və s. Belə sərgilərdən birinin sxemini sizə təqdim edirik:

1.Başlıq – “Şeirimizin ustadı” ; 2. Portret və şairin müxtəlif şəkilləri ; 3. Yarım başlıq – Seçilmiş əsərləri ;4. Yarım başlıq – Ayrı-Ayrı kitabları; 5. Dörd yüz on altı; 6. Dəniz Sahil ;7. Axı dünya firlanır; 8. Bir salama dəymədi; 9.Köklər...Budaqlar...; 10. Gəlin, açıq danışaq;11. Şəhidlər;12. Şənbə gecəsinə gedən yol ;13. Fəryad 14. Vətəndaş; 15. Bir baharın qaranquşu; 16.Açıq söhbət;17.Açılan səhərlərə salam ;18. Payız düşüncələri

Kitab sərgisi:


















Sərgidə görkəmli şəxsiyyətlərin Bəxtiyar Vahabzadə haqqında söylədiyi dəyərli fikirlər də yer alır:

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatı tarixinin xüsusi mövqeyə malik görkəmli sənətkarlarındandır. Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbiictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Bəxtiyar şeirində zamana maraq – xalqın mənəvi əbədiyyətinə, mənəvi —indisinə və keçmişinə olan maraq deməkdir. Zaman onu yalnız tarixi taleyi ilə xalqın mənəvi və əxlaqi həyat təcrübəsi ilə bağlılığı baxımından düşündürür və narahat edir. Keçmişi də, gələcəyi də şair məhz —Vətən tarixinin səhifələri kimi vərəqləyir. Bəxtiyar şəxsiyyəti yaradıcılıqda qabaqcıl təzahür edən şairlərdəndir.

**Yaşar Qarayev,**
*ədəbiyyatşünas*

Bəxtiyar Vahabzadə şəxsiyyəti Azərbaycanın bəxtiyarlığına gedən yolunda əbədi ulduz kimi daim parlayacaq və türk dünyası durduqca bu ulduz heç vaxt sönməyəcək.

**Cavanşir Feyziyev,**
*fəlsəfə elmləri doktoru*

Dilimiz, millətimiz durduqca Bəxtiyar Vahabzadə də əbədi yaşayacaqdır.

**Anar,**
*xalq yazıçısı*

Bəxtiyar ona görə Bəxtiyardır ki, onu xalq sevir; xalq da ona görə bəxtiyardır ki, onun Bəxtiyarı var.

**Niyazi,**
*bəstəkar, dirijor*

İllər ötdükcə Bəxtiyar heyəti, Bəxtiyar məhəbbəti, Bəxtiyar şeriyyəti axıb gedən zamanla ürək-ürəyə verib, dünya ilə daha da doğmalaşır.

**Nahid Hacızadə,**
*yazıçı*



Kitabxanada Bəxtiyar Vahabzadənin həyatının müxtəlif anlarını özündə əks etdirən foto sərgilərin təşkili də məqsədəuyğundur.

Ən çox sevilən kitabxana tədbirlərindən biri **şeir müsabiqəsi**dir. ***"Sevimli şairimiz-Bəxtiyar Vahabzadə" , "Türk xalqının ölməz sənətkarı"*** adları altında şeir müsabiqəsi təşkil etmək olar. Bildiyimiz kimi Bəxtiyar Vahabzadə bir-birindən maraqlı uşaq şeirlərinin müəllifidir. Şairin ***"Körpə gülüşü", "Çanta", "Günəş və mən", "Qar yağır", "Taxıl içində çiçək", "Niyə köks ötürdün?", "Qiymət", "Müəllimim", "Məktəb yolları", "Əlifba kitabı", "İlk dərs", "Sinif-həyat***" şeirləri müsabiqə zamanı uşaqlar tərəfindən münsüflərə təqdim oluna bilər.

Oxucularımızın sevimli şairimiz haqqında olan fikirlərini öyrənmək məqsədilə **anket sorğuları**nın keçirilməsi məqsədə uyğundur. Bunu nəzərə alaraq sorğumuzu sizlərə təqdim edirik.
1. Bəxtiyar Vahabzadəni tanıyırsınızmı?

☺Bəli ☺Xeyir

2. Şair neçənci ildə anadan olmuşdur?

☺_______________

3. Bəxtiyar Vahabzadənin harada anadan olduğunu bilirsinizmi?
☺Bəli ____________ ☺Xeyir

4.Bəxtiyar Vahabzadənin yaradıcılığı ilə yaxından tanışsınızmı?
☺Bəli ☺Xeyir

5. Şairin ən çox sevdiyiniz şeirinin adını qeyd edin.
☺_________________________________

6. Bəxtiyar Vahabzadənin hansı ordenlərlə təltif olunduğunu bilirsinizsə, aşağıda adlarını qeyd edin. ☺________________________________

7. Şairin ilk şeirinin necə adlandığını bilirsinizmi? Əgər bilirsinizsə adını qeyd edin.

☺Bəli ____________________________ ☺Xeyir

8. "Dil açanda ilk dəfə ana söyləyirik biz, "Ana dili" adlanır bizim ilk dərsliyimiz" şeir parçası Bəxtiyar Vahabzadənin hansı şeirindəndir? Həmin şeirin adını qeyd edin. ☺_______________________________

9. "Yaradıbdır inam məni, mən inamın övladıyam..." sözləri kimə məxsusdur?

☺________________________________

10. Bəxtiyar Vahabzadənin vəfat etdiyi ili qeyd edin. ☺______________

Kitabxanalarda keçirilən maraqlı tədbirlərdən biri **oxucu konfransı**dır. Konfransın keçirilməsinə 1-2 ay qalmış mövzu seçilməli, elan yazılmalı, dəvətnamələr çap edilib paylanmalıdır. Bəxtiyar Vahabzadənin 85 illik yubileyi ilə bağlı **"Könüllərdə taxt quran şair", "Bəxtiyar Vahabzadə yaradıcılığı", "Böyük türk dünyasının şairi"** başlıqları altında oxucu konfransı keçirmək olar. Konfransın keçiriləcəyi otaqda yazıçının kitablarından ibarət sərgi təşkil olunmalıdır. Konfrans üçün ayrıca proqram tərtib edilir və orada konfransın adı, giriş sözü ilə çıxış edən şəxs, və digər çıxış edənlərin adı, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Tədbirdə yazıçılar, jurnalistlər, müəllimlərin Bəxtiyar Vahabzadənin həyat və

yaradıcılığı, ictimai fəaliyyəti, şairə qarşı olan oxucu sevgisi haqqında məruzə və çıxışları dinlənilir. Bütün çıxışların mətni və tədbirin proqramı konfransın keçirildiyi kitabxanada saxlanılır. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (həyat və yaradıcılığı haqqında məruzə).
2. "Bəxtiyar Vahabzadənin poemaları" haqqında oxucuların çıxışları.
3. Poemalarından səhnələşdirilmiş parçalar.
4. Konfransın yekunu. Oxucularımızın xüsusən də məktəblilərin Bəxtiyar Vahabzadə haqqında olan bilik səviyyələrini yoxlamaq üçün şairin həyat və yaradıcılığının mühüm tarixi hadisələrini əks etdirən **testlər** tərtib edib, oxuculara təqdim etmək mümkündür. Odur ki, belə testlərdən birini sizə təqdim edirik.

1. Bəxtiyar Vahabzadə neçənci ildə anadan olmuşdur?

A. 1925* B. 1930 C. 1934 12 D. 1940

2. Şairin ilk şeiri necə adlanır?

A. "Ana və şəkil"* B. "Ana dili" C. "Ana hədiyyəsi" D. "Vətən marşı"

3. Şairin ilk şeiri neçənci ildə çap olunmuşdur?

A. 1945 B. 1944 C. 1943* D. 1950

4. Bəxtiyar Vahabzadə neçənci ildə SSRİ Yazıçılarının VII qurultayında SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin üzvü seçilmişdir?

A. 1989 B. 1987 C. 1981* D. 1990

5. Sevimli şairimiz neçənci illərdə Azərbaycan Milli Məclisinə deputat seçilmişdir?

A. 1999-2001 B. 1998-2002 C. 1995-2003 D. 1995-2000*

6. Bəxtiyar Vahabzadə 1976-cı ildə hansı əsərlərinə görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür?

A. “İstiqlal” B. “Təzadlar” C. “Gülüstan” D. “Leninlə söhbət” və “Muğam” poemalarına görə*

7. Şair neçənci ildə “Qırmızı əmək bayrağı” və “İstiqlal” ordenləri ilə təltif olunmuşdur?

A. 1995* B. 1999 C. 1993 D. 1990

8. Bəxtiyar Vahabzadənin hansı əsərində iki yerə parçalanmış Azərbaycanın tarixindən bəhs olunur?

A. “Muğam” B. “Gülüstan”* C. “İki qorxu” D. “Şəbi-hicran”

9. Birbaşa Sovet diktaturasını ifşa edən əsərlərini şair, sovet ittifaqı dağılandan sonra hansı başlıq altında nəşr etdirmişdir?

A. “Səyahət dəftərindən” B. “Həsrət nəğmələri” C. "Sandıqdan səslər"* D. “İnsan və zaman”

10. Bəxtiyar Vahabzadə neçənci ildə vəfat etmişdir?

A. 2008 B. 2006 C. 2007 D. 2009*

Oxucuların maariflənməsinə səbəb olan kitabxana tədbirlərindən biri **icmallar**dır. İcmallar əlaqədar mövzu haqqında oxucularda geniş təsəvvür yaradır. Bu səbəbdən də Bəxtiyar Vahabzadənin bir-birindən maraqlı əsərlərinin icmalının keçirilməsi oxucularda maraq doğurar. Kitabxanalarda şairin **“Şəhidlər”** poemasının icmalını keçirmək mümkündür. Poema ayrıca olaraq “Şəhidlər” adı altında 1990-cı ildə çap olunmuşdur. Kitab “Elm” nəşriyyatı tərəfindən

Bakıda çapdan buraxılmışdır. Əsər proloqla başlayır. Poemanı oxuduqca şairin xalqın dərdinə nə qədər yandığını, bu kədəri necə dərindən duyduğunu hiss etməmək mümkün deyil. Şair bu şeiri canlı şahidi olduğu hadisələrin təsiri altında qalaraq yazmışdır. Bu səbəbdən də baş verən qanlı hadisələrin şahidi olmayan insanlar, hətta uşaqlar belə poemanı oxuyarkən xalqımızın faciəsini dərindən hiss edirlər.

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üç rəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Bu misralardakı ürək yanğısını, vətən sevgisini duymamaq mümkün deyil. Poema şairin vətənə olan bağlılığından, şəhidlərimizə olan hörmətindən xəbər verir. Şair bu əsərilə hər birimizi lazım gəldikdə vətən yolunda candan belə keçməyə hazır olmağa çağırır. Odur ki, poema hər bir Azərbaycan vətəndaşı üçün olduqca böyük əhəmiyyətə malikdir.

**Ədəbi-bədii gecələr** kitabxanalarda keçirilən əsas tədbirlərdən biridir. Belə ki, bu tədbir hər bir oxucuda istənilən mövzu haqqında daha aydın təsəvvür yaradır, müxtəlif sənətkarlar haqqında olan biliklərini artırır. Hazırladığımız ədəbi-bədii gecənin ssenarisini sizə təqdim edirik.

*(Tədbir Bəxtiyar Vahabzadənin ifasında "Allah" şeirinin səsləndirilməsi ilə başlayır. Bundan sonra aparıcılar səhnəyə daxil olurlar.)*

**I aparıcı**: Salam əziz uşaqlar, və hörmətli qonaqlar. Bugünkü tədbirimiz böyükdən-kiçiyə hamımızın yaxşı tanıdığı xalq şairi Bəxtiyar Vahabzadəyə həsr olunub. Bəxtiyar Vahabzadə yaşayan, döyüşən, səfərbər edən və Vətən, xalq qarşısında öz

tarixi vəzifəsini yerinə yetirən çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndəsidir.

**II aparıcı:** Elinə, torpağına, kökünə bağlılıq, təkrarsız, fərdi, milli çalar Bəxtiyar şerini artıq müasir poeziyamızın tarixi-bədii faktına və hadisəsinə çevrilibdir. O, poeziyamızı dövrün ağır sınaqlarında qoruyub saxlamağı bacaran, "öz sinəsində hər zərbəyə açıq, dərisi soyulmuş ürək gəzdirən" həqiqi milli şairdir. Əsrin şərq və dünya şeir prosesi məcrasında Azərbaycanı Bəxtiyar Vahabzadənin poetik söz dünyası ləyaqətlə təmsil edir.

**I aparıcı:** Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Bəxtiyar Vahabzadə qədim və zəngin ədəbi ənənələri olan Azərbaycan ədəbiyyatı tarixində özünə möhkəm yer tutub. Əlbəttə, bu şərəf hər sənətkara nəsib olmur. B.Vahabzadə bu haqqı parlaq istedadı, orijinal yaradıcılığı və bütün xalq tərəfindən rəğbətlə qarşılanan ictimai fəaliyyəti ilə qazanmışdır. B.Vahabzadə Azərbaycanın vurğunu olan, onun hər bir guşəsini ürəkdən sevən, vətənə, xalqa bütün varlığı ilə bağlı olan və bunu yaradıcılığında səmimiyyətlə əks etdirən bir sənətkardır.

**I aparıcı:** Bəxtiyar Vahabzadə həqiqətən də xalqın şairi olmuşdur. O zamanın nəbzini tuta bilən xalqın dərdinə, sevincinə şərik olan bir insan idi. B.Vahabzadə Azərbaycan dilini zəngin və imkanlı bir dil kimi səciyyələndirir. Görkəmli sənətkar ana dilinin təmizliyi və gözəlliyinin qorunması məsələsini ümumxalq işi, dövlət işi hesab edib, belə söyləmişdir:

**II aparıcı:**”Dil xalqındır. Ona görə də dilin gözəlliyi keşiyində yalnız alim və yazıçılar, filoloq və jurnalistlər deyil, bütün xalq durmalıdır. Bu hər birimizin vətəndaşlıq borcudur. Bu ümumxalq işi, dövlət işidir. Ata-babalarımızdan miras aldığımız

ana dilimizi göz bəbəyimiz kimi qorumaq, onu cilalaya-cilalaya, öz dadı-tamı və təmizliyi ilə gələcək nəsillərə təhvil vermək müqəddəs borcumuzdur”.

**I aparıcı:**Onun şeirlərini təkcə kiçiklər deyil, böyüklər də əzbər bilirlər.Dostlar, yəqin ki, hamınız sevimli şairimizin ana dilimizə həsr etdiyi şeiri əzbər bilirsiniz.Uşaqlar, bəs əzbər bildiyiniz bu şeirdə nə qədər dərin bir hikmət olduğuna heç fikir vermisinizmi? Şeirin hər bir misrasında dilimizin zərifliyi, qədim tarixi, zənginliyi duyulmaqdadır. Gəlin “Ana dili” şeirini oxucumuzun ifasında dinləyək.

Dil açanda ilk dəfə ana söyləmişik biz,
“Ana dili” adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə
İçirir ruhumuza bu dildə gilə-gilə.
Bu dil, - bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil, - bir-birimizlə əhdi-peymanımızdır.
Bu dil, - tanıtmış bizə bu dünyada hər şeyi.
Bu dil, - əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək.
Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən
Bu torpaqdan, bu yerdən
Elin bağrından qopan, yanıqlı nəğmələrdən,
Güllərin rənglərindən, çiçəklərin iyindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağ saçlı babaların əqlindən kamalından,
Düşmən üstünə cuman o Qıratın nalından
Qopan səsdən yarandın.
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.

Ana dilim, səndədir xalqın əqli, hikməti,
Ərəb oğlu Məcnunun dərdi səndə dil açmış.
Ürəklərə yol açan Füzulinin sənəti,
Ey dilim, qüdrətinlə dünyalara yol açmış.
Səndə mənim xalqımın qəhrəmanlıqla dolu Tarixi varaqlanır,
Səndə neçə min illik mənim mədəniyyətim,
Şan- şöhrətim saxlanır.
Mənim adım-sanımsan,
Namusum, vicdanımsan!
Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əcdadımızın bizə qoyub getdiyi
Ən qiymətli mirasdır, onu gözlərimiz tək
Qoruyub, nəsillərə biz də hədiyyə verək!
Ey öz doğma dilində danışmağı ar bilən fasonlu ədabazlar,
Qəlbinizi oxşamır qoşmalar, telli sazlar.
Bunlar qoy mənim olsun,
Ancaq Vətən çörəyi,
Sizlərə qənim olsun!

**II aparıcı:** Uşaqlar, gəlin sizinlə kiçik bir **oyun** keçirək. Biz sizə suallar təqdim edəcəyik. Sualları düzgün cavablandıran hər bir dostumuza sevimli şairimizin kitabını hədiyyə edəcəyik. İlk sualımızı təqdim edirik:

Bəxtiyar Vahabzadə neçənci ildə və harada anadan olmuşdur?
( Cavab: 1925-ci ildə, Şəkidə. Sual cavablandırılır. )

**I aparıcı:** Afərin, dostlar! İndi də mən sizə bir sual təqdim edim. Diqqətli olun sual belədir:

Bəxtiyar Vahabzadənin ilk şeir kitabı necə adlanır?
(Cavab: Mənim dostlarım. Sual cavablandırılır. Düzgün cavab verənlər mükafatlandırılır. Oxuculara daha çox sual təqdim etmək üçün testdə sizə təqdim olunan suallardan istifadə edə bilərsiniz.)

**II aparıcı:**Uşaqlar, yəqin ki, şairin şeirlərinə bəstələnmiş nəğmələri eşitmisiniz. Onun şeirlərinə mahnı bəstələnməsi heç də təsadüfi deyil. Çünki şairin bütün şeirləri ahəngdar və musiqilidir. Gəlin şairimizin şeirlərindən birinə bəstələnmiş mahnını dinləyək. (Emin Sabitoğlunun bəstələdiyi **"Kəpənək"** nəğməsi səsləndirilir. )

**I aparıcı**: Elə bir şair tanıyırsınızmı ki, Azərbaycanın gözəlliyini, onun meşələrini, şirin sulu çaylarını, göllərini öz şeirlərində təsvir etməsin? Vətənimizin tərənnümü Bəxtiyar Vahabzadənin hər zaman diqqət mərkəzində olmuşdur. Onun şeirlərində vətən mövzusu həmişə ön planda olmuşdur. Gəlin həmin şeirlərdən birini dinləyək. *Oxucu Bəxtiyar Vahabzadənin "Ana yurdum" şeirini söyləyir.* **Oxucu:**

Anaların laylasından,
Babaların tarlasından,
Nənələrin qorxuluğu almaq üçün
Çəftə suyu içirdiyi kasasından
Səni içdim udum-udum
Ana yurdum, ana yurdum!
Bağ gülündə, dağ qarında,
Sel-suların axarında,
Palıdların vüqarında
Səni gördüm, Ana yurdum!
Tarixin uğuldayan dağ mehində,
Quşlarının cəh-cəhində
Yurddaşların kədərində, fərəhində
Səni duydum, ana yurdum!
Füzulinin "ah" səsində,
Üzeyirin nəğməsində,
Ələsgərin nəfəsində

Səni andım, ana yurdum.
Mənim andım - ana yurdum!

**I aparıcı**: Əziz balalar, hamımız bilirik ki, Azərbaycanımızın bu səviyyəyə gəlib çatması heç də təsadüfi deyil. Yurdumuz bu tarixi inkişaf yolunu keçənə qədər çoxlu enişli-yoxuşlu yollar keçmişdir. "İyirmi yanvar", "Xocalı" faciəsi zamanı xalqımızın başına gətirilən bəlalar heç bir zaman bizim yaddaşlarımızdan silinməyəcək. Bütün bu tarixi həqiqətləri xalqa, gənc nəsillərə çatdırmaqda Bəxtiyar Vahabzadənin rolu əvəzsizdir. Şair hər bir şəhid ailəsinin itkisini öz itkisi kimi duyaraq, öz hiss və həyəcanlarını şeirlərində əks etdirmişdir. Şairin "Şəhidlər" poemasını oxucularımızın təqdimatında dinləyək:

I oxucu: Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.
Vətəni sevmək üstdə günahkar sayıldılar,
Vətəni sevmək niyə günah olmuş ay allah?

II oxucu: Özüm qaldım çıraqsız, min çırağa yağ ikən,
Təpələrə əl açdım, özüm uca dağ ikən.
Əlacım öz-özümdən köməyi ummaq ikən,
Neçin bizə özgəsi pənah oldu, ay allah?

I oxucu: Ona ümid, mənə zor, amma demir kimə haqq?
Əl-ayaq zəncirdədir, baş qapazlı, sinə dağ ikən.
Yüz yetmiş il bu saziş, bu birlik, bu ittifaq
Bir tərəfli, talaqsız nigah olmuş ay allah!

**II aparıcı:** Əziz uşaqlar, hörmətli qonaqlar, beləliklə sevimli şairimizə həsr olunmuş tədbirimizin sonuna gəldik. I aparıcı: Sonda onu da qeyd edək ki, Bəxtiyar Vahabzadə cismən bizimlə olmasa da, o ruhən hər zaman bizimlədir. Xalqımız heç bir zaman o böyük sənətkarını unutmayacaq. Böyük söz ustadımıza həsr olunmuş gələn tədbirlərdə görüşənə qədər.

**Ədəbiyyat siyahısı:**

İnternetdə: www.google.az


Kitablar:

1. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. I cild (Şeirlər).- B.: Öndər nəşriyyat, 2004.- 328 s.
2. Vahabzadə Bəxtiyar. Seçilmiş əsərləri. İki cilddə. II cild (Poemalar).- B.: Öndər nəşriyyat , 2004.- 320 s.
3. Vahabzadə Bəxtiyar. Açılan səhərə salam. Şeirlər və poemalar.- B.: Yazıçı, 1979.- 229 s.
4. Vahabzadə Bəxtiyar. Axı dünya fırlanır: şeirlər, poemalar və tərcümələr.- B.: Yazıçı,1987.- 208 s.
5. Vahabzadə Bəxtiyar. Bir baharın qaranquşu. (Şeirlər və poemalar).- B.: Gənclik, 1971. - 169 s.
6. Vahabzadə Bəxtiyar. Dəniz * Sahil. (Şeirlər).- B.: Gənclik, 1989.- 142 s.
7. Vahabzadə Bəxtiyar. Fəryad (Dram və poemalar).- B.: Azərbaycan nəşriyyatı, 1995. - 352 s.
8. Vahabzadə Bəxtiyar. Vətəndaş (Şeirlər və poemalar).- B.: Gənclik, 1994.- 224 s.

Dövrü mətbuatda:

1. Axundov İ. Qalib şair // Günay.- 1995.-14 oktyabr.-s. 4
2. Əliyeva M. Millətin Bəxtiyarı // Respublika. - 2010.- 14 fevral.-s. 3
3. Fevziyev C. Türk dünyasının böyük söz ustadı // Xalq qəzeti.- 2010.- s.6
4. Mehdixanlı T. Poeziyamızın parlaq ulduzu // Azərbaycan.- 2005.- 25 avqust.- s.7
5. Talıbzadə K. Şairin ədəbi görüşləri // Azərbaycan. – 2000. – 24 may.- s. 6

# Poeziyamızın parlaq sənətkarı Bəxtiyar Vahabzadə

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 23
Çapa imzalanmışdır: 16.04.2020
Tirajı:100
Pulsuz